**DÖVLƏT İNVESTİSİYALARI ÜZRƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ**

**LAYİHƏSİ (Kredit № 4595AZ)**

**"LAYİHƏLƏRİN İDARƏ OLUNMASI" MÖVZUSUNDA TƏLİM KURSUNUN KEÇİRİLMƏSİNƏ**

**MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT**

Azərbaycan Hökuməti Dövlət İnvestisiyaları üzrə Kadr Potensialının Gücləndirilməsi Layihəsinin (DİKPGL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti alıb. Həmin vəsaitin bir hissəsinin "Layihələrin idarə olunması" mövzusunda təlim kursunun maliyyələşməsinə sərf edilməsi nəzərdə tutulub.

**Təlim kursunun məqsədi:** Təlimin keçirilməsində əsas məqsədlər aşağıdakılardır:

- Proses və prosedurlar, vəzifə və öhdəliklər, monitorinq və hesabatvermə və digər məsələlər daxil olmaqla layihələrin idarə olunması prosedurları və metodologiyası barədə təlim iştirakçılarının məlumatlılığını artırmaq;
- Real hadisələrin öyrənilməsi metodu (case study) vasitəsilə müqavilələrin icrasına nəzarət, işlərin gedişatına nəzarət, xərclərə nəzarət, keyfiyyətin idarəolunması, ətraf mühitin idarəolunması və digər sahələri əhatə etməklə təlim iştirakçılarına layihələrin idarə olunmasının müvafiq üsulları üzrə təlim keçmək;
- Layihələrin uğurlu icrasını təmin etmək məqsədi ilə təlim iştirakçılarında müvafiq bilik və bacarıqlar formalaşdırmaq.

**Təlim təchizatçısı üçün ixtisas tələbləri:** Təlim təchizatçısı layihələrin idarəolunması üzrə xidmətlərin təşkili, xüsusən də keçid dövrünü yaşayan ölkələrdə müvafiq sahədə təlimlərin aparılması üzrə geniş təcrübə və bacarıqlara malik olan nüfuzlu şirkət olmalıdır. Təlimçilər müvafiq sahə və təlimlər üzrə təhsilə və ən azı 5 illik təcrübəyə malik olmalıdır. Azərbaycanda təcrübəyə və Azərbaycan dilində yazmağı və danışmağı bacaran heyətə malik olan şirkətə üstünlük verilir.

**İcra müddəti və yer:** 3-4 ay, Bakı, Azərbaycan

Təhsil Nazirliyi müvafiq şirkətləri qeyd olunan təlim kursunun həyata keçirilməsinə maraqlarını bildirməyə dəvət edir. Xidmətlərə maraq göstərən şirkətlər ixtisas tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri **2010-cu il iyulun 5-nə qədər** aşağıdakı ünvana təqdim etməlidirlər:

- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

Şirkət Dünya Bankının "Borcalanlar tərəfindən məsləhətçilərin seçimi və işə götürülməsi qaydaları"na əsaslanan *Məsləhətçinin Keyfiyyət Göstəricilərinə* dair satınalma metodu ilə seçiləcəkdir.

Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək aşağıdakı ünvandan əldə etmək mümkündür:


Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

Layihənin Əlaqələndirmə Qrupu,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net